# Lovol FL936H
# Frontal yükləyici





1


2


3


4

H seriyası yükləyicilər yüksək məhsuldarlığı və etibarlı performansı ilə fərqlənir. Güclü ötürmə sistemi və optimallaşdırılmış çalov dizaynı asan və sürətli daşınmanı təmin edir, eyni zamanda enerji sərfiyyatını azaldır. Xüsusi bələdçi lövhə materialın dağılmasının qarşısını alır və hidravlik silindrləri qoruyur. Möhkəmləndirilmiş mərkəzi oynaqlı çərçivə və JF440 markalı poladdan hazırlanmış çalov uzunmüddətli iş şəraitinə uyğun yüksək davamlılıq və aşınmaya qarşı dayanıqlılıq yaradır. Bu konstruksiya milyonlarla dövriyyə və minlərlə saatlıq sahə sınaqlarından uğurla keçmişdir.




Etibarlılıq baxımından H seriyası yüksək keyfiyyətli mühərrik və sınaqlardan keçmiş komponentlərlə təchiz olunub. İkili sızdırmazlıq texnologiyası və optimallaşdırılmış boru sistemi sayəsində hidravlik sistemdə yağ itkisi minimuma endirilir, ümumi istismar etibarlılığı artır. Operator rahatlığı bu texnikanın əsas üstünlüklərindəndir. Erqonomik kabinə quruluşu, mexaniki asqılı oturacaq və geniş görünüş sahəsi operatora uzunmüddətli iş zamanı maksimum rahatlıq və nəzarət imkanı verir.

## 1 Mühərrik



## 2 Transmissiya



## 3 Ox sistemi



### Weichai Mühərriki ilə sabit Performans

WEICHAI mühərriki ilə təchiz olunub. Çoxpilləli yanacaq filtrasiyası sistemi mühərrikin daxili hissələrinin təmizliyini təmin edir və uzunömürlülüyü artırır. Mühərrik -35°C-dən +50°C-yə qədər temperaturda və 5000 m hündürlüyədək şəraitdə sabit işləmə qabiliyyətinə malikdir

### Lovol Transmissiya sistemi

Lovol istehsalı xüsusi dişli qutu yüksək davamlılıq və etibarlılıq təmin edir. Ötürücü dişlilər, mühərrik yatağı və sızdırmazlıq elementləri idxal olunmuş yüksək keyfiyyətli hissələrdən hazırlanıb. Bu sistem texnikanın davamlı işləməsini və güc itkisini minimuma endirir.

### Ağır İşlər Üçün Gücləndirilmiş Quruluş

2880 mm uzun təkər bazası sayəsində texnika yüksək sabitliyə malikdir və ağır işlər üçün idealdır. Gücləndirilmiş əsas komponentlər daşıma və fırlanma qabiliyyətini artırır.Quru tip əyləc sistemi Lovol patentli sürtünmə diski və inteqrasiya olunmuş kaliperlə təchiz olunur — bu, maşının təhlükəsizliyini və idarəetmə sabitliyini artırır.

## 4 Kabinə



## 5 Çərçivə və Artikulyasiya



## 6 Hidravlik sistem



### Geniş görünüş və operator rahatlığı

Geniş panoramlı kabinə operatora maksimum görünüş bucağı təqdim edir. Yüksək performanslı asqılı oturacaq və bel dayaqlı dizayn uzunmüddətli iş zamanı əlavə komfort yaradır. Kabinanın tam görünüş sistemi operatora ətraf mühiti izləmək və təhlükəsiz idarəetmə imkanı verir

### Gücləndirilmiş ön və arxa çərçivə

Yeni nəsil Lovol çərçivə konstruksiyası milyon dövrəlik yorğunluq testindən, 1000 saatlıq laborator və 5000 saatlıq sahə sınaqlarından uğurla keçib. Gücləndirilmiş oynaqlı struktur yüksək daşıma gücünə və uzunmüddətli davamlılığa malikdir. Mərkəzi oynaqlı dizayn – yuxarı hissədə birləşmiş fırlanma yatağı, aşağı hissədə isə konusvari yataqla təchiz olunub ki, bu da zərbə gücünə qarşı dözümlülüyü artırır və xidmət müddətini uzadır.

### İnnovativ hidravlik sistem

Yüksək etibarlılıqlı tək nasoslu axın paylayıcı sistem tətbiq olunub.Lovol patentli çoxklapanlı və ikili sızdırmazlıq texnologiyası sayəsində hidravlik sistemdə yağ sızması tam qarşısı alınır. 24° konuslu keçidlər və boru qoruyucuları sürtünmədən yaranan zədələnmələri aradan qaldırır, sistemin uzunömürlülüyünü və sabitliyini təmin edir.

# Ümumi texniki göstəricilər

| | |
|---|---|
| **Mühərrik** | |
| Mühərrik | Weichai |
| Silindr sayı | 6 |
| Gücü | 125 at gücü , 2200 dövr/dəqiqə |
| Maksimal fırlanma anı | 500 (N.m) |
| Sürət qutusu növbəsi | 4 irəli+2 geri |
| **Qazma göstəriciləri** | |
| Yükgötürmə qabiliyyəti | 3000 kq |
| Qazma gücü | 98 kN |
| Yükləmə hündürlüyü | 2980 mm |
| Boşaltma məsafəsi | 1100 mm |
| Dırmaşma dərəcəsi | $30^{o}$ |
| Dönmə açılma dərəcəsi | $38^{o}$ |
| **Çən tutumu** | |
| Hidravlik yağ çəninin həcmi | 105 L |
| Yanacaq çəninin həcmi | 150 L |
| **Qabarit ölçüləri** | |
| İşlək çəkisi | 10250 kq |
| Çalov həcmi | $2\ m^3$ |
| Daşınma zamanı uzunluğu | 7900 mm |
| Daşınma zamanı eni | 2520 mm |
| Daşınma zamanı hündürlüyü | 3200 mm |
| Təkər ölçüləri | 17.5-25 |
| Təkər bazası | 2880 mm |



## Lovol FL936H
## Frontal yükləyici

- **İşlək çəkisi: 10230 kq**
- **Yükgötürməsi : 3000 kq**
- **Mühərrik: Weichai**